# İlham Əliyevin ədalətli və qətiyyətli siyasəti sülhün yeganə qarantıdır

Qərb Cənubi Qafqazda yeni savaş ssenarisi hazırlayır

Cənubi Qafqazda sülhün, təhlükəsizliyin bərqərar olunmasını istəməyən qüvvələr indi yenə də aşkar şəkildə "hərəkətə" keçiblər. Görünən odur ki, ABŞ və Qərb bütün mümkün vasitələrlə Rusiyanı regiondan sıxışdırıb çıxarmaq istəyir və bunu da artıq gizlətmirlər. Bu məqsədə çatmaq üçün isə alət olaraq Ermənistandan istifadə edirlər. Bu da təbii ki, məğlub ölkənin Azərbaycanla sülh müqaviləsini imzalamaqdan yayınmasına şərait yaradır.

Ermənistan 30 il Azərbaycan torpaqlarını işğal altında saxlayarkən də Qərb dairələri status-kvonun dəyişməməsi üçün daim ikili standartlar tətbiq etməklə bu ölkəyə sahib çıxırdılar. İşğalçı ölkə də bu cəzasızlıq mühitindən yararlanaraq istədiyi oyunu oynayır və istədiyi vaxt Azərbaycanı təxribata çəkirdi. Amma bu dəfə fərqli oyun oynayırlar. Yəni, Qərb dairələrinin Hayastanın sülhdən yayınması, sülh müqaviləsinin imzalanmaması üçün başlatdıqları oyunlar köhnə ssenarinin davamıdır.

ABŞ başda olmaqla Qərb dövlətləri Cənubi Qafqazda vəziyyəti mümkün qədər gərginləşdirmək, ənənəvi rəqiblərinə qarşı yeni münaqişə ocaqları yaratmaq yolunu tutublar. NATO-nun baş katibi Y.Stoltenberqin regiona səfərinin ardınca onun ABŞ dövlət katibi Blinken və Avropa Komissiyasının sədri Ursula von der Leyen ilə 2024-cü ilin aprelində geniş tərkibdə görüşünün olacağı barədə yayılan məlumatlar, xüsusən Ermənistana "təhlükəsizlik zəmanətinin" verilməsi barədə müzakirələr bir daha göstərir ki, Qərb Cənubi Qafqazı "qan çanağına" çevirməkdə maraqlıdır.

ABŞ və Avropa İttifaqı regionda vəziyyəti mümkün qədər gərginləşdirməklə Cənubi Qafqazda hərbi cəhətdən mövcudluqlarını hədəfləyirlər. Bu isə heç şübhəsiz ki, Bakı və İrəvan arasında sülh perspektivlərini faktiki heçə endirir. Bir sözlə, "təhlükəsizlik zəmanəti" ideyası Azərbaycanla Ermənistan arasında yekun sülhü beynəlxalq hüququn prinsiplərinə yox, Qərbin arzuladığı formaya uyğunlaşdırmaq cəhdidir. Əlbəttə, bu, Azərbaycana qarşı atılan addım olmaqla milli maraqlarımıza ciddi təhdiddir.

Ehtimal olunur ki, ABŞ və Avropa İttifaqı Ukrayna ilə Böyük Britaniya, Fransa, Almaniya və digər ölkələr arasında ikitərəfli sazişlər kimi Ermənistana "təhlükəsizlik zəmanətləri" vermək üçün sənəd imzalamağa hazırlaşırlar. Belə olan halda regionda geosiyasi hadisələr sürətlə inkişafa başlaya bilər.

Ermənistan KTMT-də iştirakını "dondurmasından" sonra təşkilatdan qəti şəkildə çıxacağını nümayiş etdirir. Rəsmi İrəvanın Rusiyanın Gümrüdəki 102-ci bazasının ləğvinə başlamaq fikrində olması da bunu təsdiqləyən reallıqdır. Burada Ermənistanın istəyi də bəllidir. İrəvan tərəfindən qovulacaq Rusiya sərhədçiləri və Rusiya hərbçilərinin yerinə artıq sərhəddə yerləşdirilmiş Avropa Monitorinq Missiyasının (EUMA) tərkibində göndərilə bilən ABŞ hərbçiləri ola bilər.

Mövcud təhlükəli vəziyyətdə Rusiya hakimiyyəti hələ də məsələyə qarışmadan gözləmə mövqeyi sərgiləyir. Amma göründüyü kimi, Paşinyanın Fransa və ABŞ kimi dövlətlər ilə hərbi əməkdaşlığa kəskin dönüş yaratmaq üçün atdığı addımlar durumu getdikcə ağırlaşdırır.

Təbii ki, Brüsseldə danışıqların aparılması, Ermənistana "təhlükəsizlik zəmanətinin" yaradılması, Azərbaycanla Hayastan arasında sülh prosesinə dəstək deyil, məsələni birtərəfli qaydada həll etmək cəhdidir ki, bu da Azərbaycanın maraqlarına cavab vermir və ölkəmizə qarşı atılan addımdır.

Bu, Aİ-nin missiyasından sonra Qərbin daha geniş miqyasda regiona hərbi cəhətdən daxil olması cəhdidir ki, mövcud vəziyyət regionda partlayışa və formalaşmaqda olan regional təhlükəsizliyə böyük zərbə ola bilər.

Bu, eyni zamanda Ukraynanın ardınca indi də Rusiyanı Cənubi Qafqazdan, daha sonra isə Mərkəzi Asiyadan sıxışdırıb çıxartmaq planının işə salınmasıdır. Əlbəttə ki, Rusiya bu plana mütləq cavab verməlidir. Elə görünən odur ki, cavab özünü çox gözlətməyəcək. Belə olan halda isə daha çox zərbə alan Hayastan olacaq. Bu isə baş verə biləcək hadisələri indidən proqnozlaşdırmağa imkan verir. Belə ki, Rusiyanın cavabı ABŞ başda olmaqla Cənubi Qafqazda vəziyyəti mümkün qədər gərginləşdirmək, ənənəvi rəqiblərinə qarşı yeni münaqişə ocaqları yaratmaq yolunu tutan Qərb dövlətlərinə tutarlı zərbə olacaq. Bu ssenaridə vasitə rolunu oynayan Ermənistanın isə Ukrayna və ya Livana çevriləcəyi şübhə doğurmur.

Azərbaycanın mövqeyi isə hər zaman olduğu kimi dəyişməzdir. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, artıq kimsə Azərbaycanla təhdid, hədə-qorxu dili ilə danışa bilməz. Martın 18-də Xankəndi şəhərində Novruz tonqalını alovlandırıb xalqa bayram təbrikini ünvanlayarkən İlham Əliyev bir daha Azərbaycanı istəməyən, regionda yenidən münaqişə ocağının yaranmasına çalışan qüvvələrə mesaj ünvanladı: "İkinci Qarabağ müharibəsindən sonra qürurla yaşayırıq. Biz hamımız fəxr edirik ki, biz özümüz ədaləti bərpa etdik, torpaqlarımızı işğalçılardan azad etdik, öz gücümüzü göstərdik və bundan sonra hər kəs bizimlə hesablaşmalıdır, əks təqdirdə, özü peşman olacaq".

Azərbaycan Prezidenti deyir ki, Cənubi Qafqazda sülh istəməyən qüvvələrin Ermənistandan bir alət kimi istifadə etməklə öz maraqlarını həyata keçirmək cəhdləri baş tutmayacaq. Bu prosesdə ən ağır zərbə yenə də məğlub Ermənistana dəyəcək.

**"Qəbələ"**

# Milli-mənəvi dəyərlərimiz

**Vətənpərvərlik və mənəviyyata aid düşüncələr**

Həyatda bir çox məsələlərin, müxtəlif sahələrə aid olan problemlərin hər birimizə aidiyyatı var. Əsas məsələ də odur ki, belə problemləri aşkar edərək aradan qaldırılmasına çalışmalıyıq. Əlbəttə, həyat təcrübəsi göstərir ki, iş olan yerdə uğursuzluqlar da qaçılmaz deyil. Möhtərəm prezidentimiz İlham Əliyev də 2020-ci ildə etdiyi çıxışlarından birində demişdi: "Hər bir sahədə iş zamanı çətinliklər də olur, nailiyyətlər də, uğursuzluqlar da". Qeyd edək ki, müxtəlif problemlər haqqında əhali arasında da kifayət qədər danışılır, mətbuat səhifələrində də yazılır. Mən də bu gün qısa da olsa bu barədə söhbət açmaq qərarına gəlmişəm. Belə ki, dilimizin və sözümüzün saflığının, təmizliyinin qorunması, davranış qaydaları, etika-estetika normalarına riayət olunması, milyonlarla tamaşaçısı olan televiziya kanallarında gördüyümüz milli mentalitetimizə, mənəviyyatımıza zidd olan verilişlər, ya da telekanallarda təşkil olunan dəyirmi masalarda ayrı-ayrı peşə sahiblərinin, yaxud müzakirə obyektinə çevrilən şəxsin ünvanına təhqiramiz ifadələr işlədilməsi, hədə-qorxu gəlinməsi, həddindən artıq özündən razılıq görünüşü yaratmaq cəhdi, başqasını aşağılaması, səhnə mədəniyyətinə riayət olunmaması, bəzən də müğənnilərimizin ürək sıxan dərəcədə geyim tərzi, eləcə də dəyirmi masa təşkil olunanda, məlahətli səs sahiblərinin, bura dəvət olunmuş ekspertlərin, ayrı-ayrı mütəxəssislərin bir-birinə etinasız yanaşması, həmsöhbətini dinləməyi bacarmaması, bununla da tamaşaçılara hörmətsizlik ifadəsi və nəticə etibarilə telekanallara inamın aşağı düşməsi, mənfi təəssürat yaranması müzakirələrə səbəb olur. Hər birimiz birbaşa, ya da ətrafımızda edilən narazılıqlardan bilirik ki, TikTok, WhatsApp, Facebook və digər sosial şəbəkələrdə tərbiyəsiz ifadələrin getməsi, xoşagəlməz şəkillərin, videoların, yazıların yerləşdirilməsi, təhqiramiz rəylərin yazılması və s. həddini aşıb, adi hala çevrilib. Bu şəbəkələrə uşaqlar kütləvi surətdə aludə olur, bununla da, azyaşlılar təhsildən, əsaslı tərbiyədən, estetik gözəllik hisslərindən uzaqlaşır, eybəcər davranışa, ictimaiyyətin qəbul etmədiyi hadisələrə üstünlük verirlər. Həmçinin ərzaq məhsullarının standartlara uyğun olmaması, bununla da, xəstəliklərin çoxalması, nəticədə apteklərin sayının artması, məlum olan saxta iynə-dərman mövcudluğu və bu preparatların müalicə təsiri göstərmək əvəzinə əlavə xəstəliklər yaratması və sadalamadığım, lakin məlum ayrı-ayrı problemlər ictimaiyyətdə davamlı müzakirə mövzusuna çevrilib...

**Tərbiyə ailədən başlayır...**

Tərbiyənin vaxtında və düzgün verilməməsi, təhsil sahəsində bəzi problemlərin olması deyilmi bütün problemlərin əsasını qoyan?! Düşünürəm ki, yuxarıda sadalanan problemlərin böyük əksəriyyəti insanın tərbiyəsi, mənəviyyatı, bəzən də savadının aşağı səviyyədə olması ilə bağlıdır. Həyat, təcrübə göstərir ki, düzgün tərbiyə ailədən başlayır, ailədə gördüyü hadisələr, eşitdiyi sözlər, şahidi olduğu yaxşı və pis müzakirələr uşağın qəlbində, zehnində kök atır və onun tərbiyəsinin xarakterinin, düşüncə tərzinin formalaşmasında istisna rol oynayır, onun gələcək həyatında bu xüsusiyyətlər özünü büruzə verir, yeri gəldikdə isə kütlələr qarşısında çıxışları, mülahizələri ilə özünü göstərir. Gəlin düz danışaq: uşaq dünyaya göz açandan, ailədə dedi-qodu, söyüş, təhqir, yalan, ikiüzlülük, oğurluq kimi pis əməllərin şahidi olursa, o böyüyəndən sonra cinayətə meyil göstərir. Rəhmətlik professor Tariyel Əhmədovun yazdığı kimi, hökm oxunandan sonra məhkəmə zalından səslənən "Can ay bala, sənin yerinə bizi mühakimə edəydilər. Səndə günah yoxdur. Bizik müqəssir, biz" ("Gənclik, mənəvi aləm, estetika", (1987, səh.63) - qəfil ana fəryadı eşidilir. Göründüyü kimi, ana övladına düzgün tərbiyə vermədiklərini açıq etiraf edir və gecikmiş həyəcan keçirir.

**Ana dilimizin keşiyində...**

Bir az da ana dilimizin saflığının qorunmasından danışaq. Bu məsələ böyükdən kiçiyə hər birimizi narahat edir. Elə ona görə də təkcə son dövrdə ölkə başçısı dilimizin təkmilləşməsinə, tətbiqinə dair bir neçə dəfə sərəncam imzalamışdır. Kifayət qədər iradlar, xüsusilə də mütəxəssislər tərəfindən, dilimizdən düzgün istifadə qaydalarının pozulmasına, danışıq zəminində əcnəbi dillərdən olan sözlərlə qarışdırılmasına qarşı yönəlmişdir. Bundan narahat olan elm adamları, ədəbiyyat nümayəndələri vaxtaşırı mətbuatda çıxışlar edir. Şair-yazıçı Seyran Səxavət də, bilərəkdən, ya bilməyərəkdən yaradılan qüsurlarla bağlı narahatlığını bildirir. O, bir müsahibəsində həyəcanla dilə gətirir ki, "Hər şeyi pozub yenidən başlamalıyıq. Təhsil özü hər şeyi yenidən nizamlayacaq. O təhsilimizin ucbatından dilimiz bu saat "reanimasiyadadır". Ağır vəziyyətdə, ölüm ayağındadır. Kütləvi informasiya vasitələri, başda Azərbaycan televiziya məkanı olmaqla yazılı mətbuat, qəzetlər, jurnallar, saytlar, tərcümə kitabları, mahnıların əcayib mətnləri və s. Bütün bunlar həmısı təhsil sisteminin son dərəcə aşağı olması ucbatındandır. Bunlar Azərbaycan dilini "mühasirəyə alıb". Azərbaycan dilinin vəziyyəti heç vaxt bu günki qədər ağır olmayıb" ("Olaylar", 23-29.02.2024). Filologiya elmləri doktoru, BDU-nun professoru Qulu Məhərrəmli nitq mədəniyyətimizlə, sözlərdən istifadə ilə bağlı tövsiyələr verir, nümunələr göstərir. Qulu müəllim bir məqaləsində qeyd edir ki, "Televiziya nitq mədəniyyətinin, düzgün danışığın təbliğatçısı olmalıdır. Bu mənada tamaşaçı düzgün danışığı, normativ tələffüzü aparıcıdan, diktordan, səlis nitqi, aydın diksiyası olan jurnalistlərdən öyrənir... Təəssüf ki, hazırda özəl televiziyalarda aparıcıların, xüsusən əyləncə və şou proqramlarını aparanların dilində xeyli qüsurlar özünü göstərir... Televiziyaların efirində ciddi auditoriyaya ünvanlandığı iddia edilən proqramların, tele-debatların əksəriyyətində "gəlifdi", "oturuf", "uje", "tembole", "koneçno", "kstati" kimi sözlərdən istifadə olunur" ("Bakı Universiteti", 31.05.2021). AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun Toponimika şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Elçin İsmayılov da israr edir ki, "Dərsliklərin, qəzetlərin, televiziya kanallarında gedən verilişlərin dilinə nəzarət olmalıdır. Mən siyasi nəzarəti, məsələnin məzmununa münasibəti, deyək ki, demokratiyanın pozulmasına gətirib çıxardan nəzarəti nəzərdə tutmuram. Səviyyəni qorumaq üçün dilin tətbiqi ilə bağlı müəyyən bir nəzarət olmalıdır. Bu təkcə dilə münasibətdə olmamalıdır. Musiqiyə, bədii ədəbiyyata münasibətdə də belə olmalıdır" ("Olaylar", 8-14.12.2023). İnanırıq ki, bu sahədə uğurlarımız olacaq. Bunu hər kəsin, xüsusilə mütəxəssislərin narahat olması göstərir.

**Həyalı və mədəni davranış**

***Həyalı söz danış, öyrənib səndən,***
***Həyalı danışsın səni dinləyən.***

Bu sözləri dahi Nizami Gəncəvi, hələ səkkiz yüz il bundan əvvəl demişdi. Belə aydın olur ki, həyalı danışmağa çağırış qədimdən gələn, bizi qürurlandıran mədəniyyətimizdir. Mədəniyyətimizdən söz düşəndə isə Ümummilli lider Heydər Əliyevin dəyərli fikirləri yada düşür: "Fəxr edə bilərik ki, bizim mədəniyyətimiz qədim zamanlardan da çox zəngin və yüksək olmuşdur".

Televiziya kanallarında elə bu zəngin mədəniyyətimizə daha çox yer verilməlidir fikirləri tez-tez səsləndirilir. Bəzi ekspertlər isə deyirlər ki, tənqidi mövzular üstünlük təşkil etməlidir, telekanallarda. Hər bir halda bütün ictimaiyyətin qarşısında konflikt, ədəbsiz sözlər, ürək ağrıdan ifadələr nümayiş etdirilməsinə son qoyulmalı, bəlkə də qadağalar edilməlidir.

"Milli-mənəvi dəyərlərin qorunması da Televiziya və Radio Şurasının üzərinə düşür. Lakin Televiziya və Radio Şurası öz işinin öhdəsindən gələ bilmir. Ölkə telekanallarında şou xarakterli verilişlər çoxalıb. AzTV, İTV-ni çıxmaq şərti ilə digər televiziya kanallarında daha çox şit, ucuz, bayağı verilişlər verilir. Cəmiyyət də bundan narazıdır". Milli Məclisin deputatı Elmira Axundova çıxışlarından birində deyib bu sözləri. Düz sözə nə deyəsən!

Hər birimiz mədəni və səmimi olsaq, hər kəs davranışına, danışığına layiqincə nəzarət edərsə, yaranmış problemlər öz həlini tapar.

**Ramin MƏMMƏDOV,**
**yazıçı-publisist.**